# Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan qurumlarda vakant vəzifələrin tutulması haqqında MÜSABİQƏ ELANI

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində olan aşağıdakı qurumlarda vakant vəzifələrin tutulması haqqında müsabiqə elan edir:

1. DOST Agentliyi
2. Sosial Xidmətlər Agentliyi
3. Dövlət Məşğulluq Agentliyi
4. Dövlət Sosial Müdafiə Fondu
5. Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi
6. Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya

Müsabiqədə iştirak etmək istəyən şəxslər **14.08.2026 – 28.08.2026-cı il tarixlərində** bu keçid vasitəsilə qeydiyyatdan keçə bilərlər.

**Müsabiqə haqqında ümumi məlumat:**

Müsabiqədə elana çıxarılmış vəzifənin tutulması şərtlərinə uyğun gələn Azərbaycan Respublikası vətəndaşları iştirak edə bilər.

Müsabiqə test imtahanı və müsahibə mərhələlərindən ibarətdir.

Test imtahanı aşağıdakı bloklar üzrə **50 qapalı test** tapşırığından ibarətdir.

- qanunvericilik bilikləri üzrə – 25 test tapşırığı;
- məntiqi düşünmə qabiliyyəti üzrə – 15 test tapşırığı;
- ümumi dünyagörüşü üzrə – 10 test tapşırığı.

Test imtahanının müddəti **100 dəqiqədir**. İmtahanda namizədə təqdim edilən test tapşırıqlarının hər birinin doğru cavablandırılması 1 balla, yanlış cavablandırılması və ya cavablandırılmaması 0 balla qiymətləndirilir.

Test imtahanı informasiya təhlükəsizliyinə riayət edilmək şərti ilə xüsusi proqram təminatı vasitəsilə keçirilir.

Test imtahanında təqdim olunan sualların **70 faizini** düzgün cavablandırmış namizəd imtahanı müvəffəqiyyətlə vermiş hesab edilir.

Müsahibə mərhələsində namizədin bilik səviyyəsinin qiymətləndirilməsi əvvəlcədən elan edilmiş müsahibə proqramı əsasında həyata keçirilir. Bununla yanaşı, müsahibədə namizədlərin vəzifənin tələblərinə uyğunluğunun müəyyən edilməsi üçün müxtəlif qiymətləndirmə üsullarından (keys əsaslı, davranış əsaslı və kompetensiya əsaslı müsahibələr) istifadə oluna bilər.

**Müsabiqədə iştirak qaydası haqqında məlumat:**

Müraciət Nazirliyin ƏMAS-da yaradılmış "İşə qəbul" altsistemi (bundan sonra – Sistem) vasitəsilə həyata keçirilir.

Müraciət edən şəxsin iddia etdiyi vəzifənin tələblərinə uyğunluğu yoxlanılır və onun müsabiqədə iştirakına razılıq verilməsi haqqında məlumat Sistem vasitəsilə ona təqdim edilir.

Müsabiqədə iştirakı qeydə alınmayan şəxslərə bu barədə Sistem vasitəsilə bildiriş göndərilir. Namizədin qeydə alınmamasına səbəb olan çatışmazlıqlar aradan qaldırıldıqdan sonra o, imtahanda iştirak etmək üçün qeydə alınır.

Namizədə test imtahanının keçirilmə vaxtı və yeri haqqında məlumat Sistem vasitəsilə təqdim edilir. Bu namizədlər Sistem vasitəsilə test imtahanında iştirak edəcəyini və ya iştirakdan imtina etdiklərini bildirməlidirlər. Test imtahanında iştirak etmək üçün namizəd Sistemdə yerləşdirilmiş "Buraxılış vərəqəsi" və şəxsiyyətini təsdiq edən sənədlə imtahan yerinə müəyyən edilmiş vaxtda yaxınlaşmalıdır.

Test imtahanında iştirak etmiş və keçid balını toplamış namizədin imtahan nəticələri **1 il** müddətində qüvvədə olur. Namizəd həmin müddətdə imtahanında iştirak etdiyi sahə (blok) üzrə tələblərinə uyğun gəldiyi vakant vəzifələrin tutulması üçün elan edilmiş növbəti müsabiqələrin müsahibə mərhələsində iştirak edə bilər.

Test imtahanında müvəffəqiyyət qazanmış şəxslər müsabiqənin müsahibə mərhələsində iştirak etmək hüququ əldə edirlər. Namizədlərə müsahibənin keçirilmə vaxtı və yeri haqqında məlumat Sistem vasitəsilə təqdim edilir. Bu namizədlər Sistem vasitəsilə müsahibədə iştirak edəcəklərini və ya iştirakdan imtina etdiklərini bildirməlidirlər.

Aşağıdakı şəxslər (müvafiq təsdiqedici sənədlər Sistem vasitəsilə təqdim edildiyi təqdirdə) birbaşa müsabiqənin müsahibə mərhələsində iştirak etmək hüququna malikdirlər:

- vakant vəzifənin tutulması üçün nəzərdə tutulan təhsil tələbi (istiqaməti) üzrə elmlər doktoru elmi dərəcəsi olanlar;
- dövlət orqanlarında inzibati vəzifədə (o cümlədən kiçik rəis heyəti və sıravi heyət vəzifələri istisna olmaqla xüsusi, hərbi və diplomatik rütbə nəzərdə tutulan vəzifələrdə) qulluq keçən dövlət qulluqçuları, habelə həmin vəzifələrdə çalışmış və azı 5 il qulluq stajı (xidmət illəri) olanlar;
- elan edilmiş vakant vəzifəyə uyğun vəzifə üzrə dövlət qulluğuna qəbul müsahibəsində iştirak edərək ehtiyat kadrlar siyahısına daxil edilmiş şəxslər;
- mühasib vəzifəsinə iddia edən və qanunvericiliklə müəyyən edilmiş qaydada Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə və İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarının **I, II səviyyələri** üzrə qüvvədə olan **peşəkar mühasib sertifikatına** malik olan şəxslər;
- tibb yönümlü vəzifələrə iddia edən və qanunvericiliklə müəyyən edilmiş qaydada tibb mütəxəssislərinin sertifikasiya imtahanından keçərək qüvvədə olan **sertifikasiya şəhadətnaməsinə** sahib olan şəxslər;
- **"Yüksəliş"** müsabiqəsinin finalçıları;
- "Gənc DOST" altproqramı üzrə könüllülük fəaliyyətini bitirmiş və **"A" kateqoriyalı** sertifikat almış şəxslər.

Namizədin vakant vəzifə üzrə müəyyən edilmiş tələblərə cavab verməməsi, habelə onun tərəfindən təqdim edilmiş məlumat və sənədlərdə bilərəkdən yanlışlığa yol verilməsi faktı aşkar edildiyi halda, namizədin müsabiqədə əldə etdiyi nəticələr etibarsız hesab edilir.

**DİQQƏT!**

- *Elan edilmiş müsabiqədə hər bir şəxsin yalnız **1 (bir) vəzifə** üzrə qeydiyyatdan keçilməsinə icazə verilir. Buna görə müraciətçilərə bütün vakant vəzifələrin tutulması tələbləri və digər şərtləri ilə ətraflı tanış olaraq məqsədyönlü seçim etmələri tövsiyə olunur.*
- *Müsabiqədə iştirak etmək istəyənlər qeydiyyatla bağlı yaranmış suallarla Nazirliyin **142 Çağrı Mərkəzinə** (bayram və istirahət günləri istisna olmaqla) müraciət edə bilərlər.*